◆

# "...ABŞERONA MƏHƏBBƏTLƏ..."

*Rafael Muradovun hər tablosu bu ruhdadır...*



1966-cı ildə məşhur "Əzimzadə məktəbi"ni bitirən Rafael Muradovun elə həmin vaxtlarda təşkil olunan respublika sərgisindəki "Buzovna mənzərəsi" müxtəlif yaşda olan həmkarlarının diqqətini çəkdi və bu heç də təsadüfi olmadı. Onun "tələbə" adını qazanmasından sonra ona rəssamlıq sahəsində dərs verəcək iki "bədii örnək" vardı. Birincisi — təhsil gördüyü rəssamlıq məktəbi və bu məktəbin "sosialist realizmi" bədii prinsiplərini tədris edən müəllimləriydi, digəri isə elə Rafaelin doğma kəndində — yəni Buzovnada məskunlaşan və rəsmi çərçivəyə sığışmayan "Abşeron məktəbi"nin müxtəlif sinli nümayəndələri... Son bir-neçə ildə hər gün məktəbdə eşitdiklərinin əksini Buzovnada müşahidə edən gənc Rafael hətta bir müddət yol ayrıcında qalmışdı. Seçimə gəldikdə isə o, "sərt üslub"a meyillənmək əvəzinə, barəsində rəvayətlər dolaşan rəssam Mircavad Mircavadova, onun ətrafına toplaşan yaşıdları Kamal Əhmədə, Fərhad Xəlilova və Əlövsət Əliyevə daha çox inandı. Seçdiyi bu çətin yolun məhrumiyyətlərdən keçəcəyinə və ideoloji təpkilərə məruz qalacağına baxmayaraq, gənc rəssam "Abşeronçu"luğa üstünlük verdi. Başqa sözlə desək, o da əqidə dostları kimi sənətdə şüarçılığın, yalançı pafosun və süni şişirtmənin əksinə getdi Çünki, milli sənət tariximizə "Abşeron məktəbi" kimi daxil olan müxtəlif yaşlı rəssamların yaradıcılıq amalı da buna xidmət göstərirdi.

Bu yerdə deyək ki, zamanında məqsədli yalanlara "Həpsi rəngidir..." deyən əmircanlı Səməd Mənsursayağı həyatı — gördüklərini bər-bəzəksiz təsvir etməyə üstünlük verən "Abşeronçu"lar, rəsmi dairələrdə "yuxarı başa keçənlər" olmasa da, sənət xiridarları daha çox onların əsərlərini soraqlayırdı. Ancaq zaman ayrı zamandı. Odur ki, sənətsevərlər sərgi salonlarına buraxılmayan çox əsərləri görmək üçün emalatxanalara ayaq açmaq məcburiyyətindəydi. Tədricən əməkdar rəssam Rafael Muradovun emalatxanası da belə "ünvan"lardan biri kimi tanındı...

Kimlərinsə Azərbaycandakı təbiət gözəlliyini Abşerondan çox-çox uzaq yerlərdə axtarmasına rəğmən Rafael

Muradov bu qeyri-adiliyi və gözəlliyi elə Bakı həndəvəri kəndlərdə tapmış oldu. Buzovna, Qala, Maştağa və Bilgəh təbiətinin dəyişgən mənzərəsi ("Köhnə Qala", "Günəşli gün", "Abşeron", "Xəzri", "Bahar", "Fəsillər" və s.) sözün əsl mənasında rəng yağmuruna düşüb, — desək, səhv etmərik. Bu mənzərələrdə forma və səth elə ustalıqla "əridilib" ki, məkan dərinliyində izlənilən rəmzə çevrilə biləcək ayrı-ayrı atributlar yalnız ovqatın təzələnməsinə xidmət göstərir. Rəssam yozumu ilə gerçəkləşən belə təbiət motivləri nə qədər reallıqla irreallığın qovşağında dayansa, tamaşaçı onlara inanır...

Rafael Muradov tamaşaçı təxəyyülünü sınağa çəkməyi ilə "Abşeronçu"lar arasında seçilir. Motivi və obyekti mənalandırmağa üstünlük verən rəssam müxtəlif, bəzən də xırda ayrıntılarla tamaşaçısını dialoqa çağırır. Odur ki, belə əsərlər seyrçiyə bədii-estetik zövq verməklə yanaşı, həm də onu düşündürür. Rafael Muradovun "Nağıl", "Qəfəs", "Allahu-Əkbər", "Şəbi-hicran", "Qarabağ şikəstəsi", "Tariximiz" və s. əsərləri bu qəbildəndir...

O mənəvi-dini dəyərləri özünü daha yaxşı dərketmə vasitəsi kimi qəbul etdiyindən onları tabloya gətirməklə də çoxlarının bəsirət gözünün açılmasına təkan verməyə çalışır. Odur ki, "Çildağ", "Əshabi-kəhf", "Adəm və Həvva", "Faciə", "Aşura" və b. əsərləri adi gözlə görünən və daha çox arifanə duyulmağa ehtiyacı olan fəlsəfi-psixoloji yükünə görə tamaşaçını suallar burulğanına salır, "Niyə və nəyə görə?" onun üçün adilikdən çıxıb haqqa yönəldənə çevrilir...



Rafael Muradovun çəkdiyi natürmortlarda — "Narlar", "Balıqlar", "Meyvələr" və sairədə) nə fransızsayağı cansızlıq axtarışı, nə də flamand və hollandların soraqladığı donuqluq əlaməti görməzsən. Bunun əvəzində o, təbiət nemətlərini hələ də canlı kimi hiss edir, onları rəng və bədii şərhlə təsdiqləməyə çalışır. Belə natürmortlar tamaşaçıya zövq verməklə yanaşı, ona qürur bəxş edir, bütünlükdə isə Vətən torpağına məhəbbət duyğuları aşılayır.

Rafael Muradov kətan üzərində zamanla, onun tərəf müqabilləri olan müasirləri ilə həmsöhbət olmağı, onlarla dialoq qurmağı xoşlayır. "Sona bülbüllər"də tərəf-müqabili, sözün əsl mənasında oxumaqdan daha çox yanıb-yaxılan xanəndə, "Emalatxana"da fikirlərini paralayan, özünü bir qədər narahat hiss edən model, "Xəzərin sahilində"ki baba ilə nəvə, "Mənə dəniz



verin"də yaradıcılığından dənizi bir qırmızı xətt kimi keçirən sənətçi, "Yuxu"da isə sözün əsl mənasında yuxuları ərşə çəkilən sevgililərdir. Bütün bu qədər fərqli yaşantılara həmdəmlik etmək, əlbəttə ki, rəssam üçün asan olmayıb. Yalnız hər süjetə özünəməxsus kolorit və bədii yük verməklə, rəssam demək istədiklərinə tamaşaçını inandıra bilib.

Zaman-zaman dəyişən tariximiz onun əsərlərində əsl görkəmindədir, — desək, yanılmarıq. Başqa sözlə, öz dövrünün güzgüsü olmağa çalışan rəssam bu məsələdə birmənalı olaraq güzəştsizdir. "Tariximiz", "Etiraz", "Qara Yanvar", "Qaçqınlar", "İmperiyanın süqutu", "Qaçqın harayı", "Faciə" və "Uçurum" kimi əsərlərində reallıqdan fəlsəfi ümumiləşdirməyə qədər uzanan, tarixi faktlara söykənən elə həqiqətlər var ki, onlara inanmamaq çətindir. Həm rəng həllinin yaratdığı təzadlı ovqat, həm istifadə etdiyi rəmzi detallar, obrazlar tamaşaçıya bəlalarımızın dərinliyini, köklərini duymağa, bizə düşünüb-daşınmağa imkan yaradır...

Bütün "Abşeronçu"lar kimi Rafael Muradovun da seçdiyi təsvir motivləri zahiri sadəliyinə baxmayaraq, mürəkkəb, lap dəqiq desək, fəlsəfi tutumludur. Onun hər bir tablosu təkcə zamanına görə yox, həm də məna-məzmun yükünə görə müasir, gələcək ünvanlıdır. Odur ki, bu mənada rəssam üçün müasirlik — həm də öz dövrünün həyəcanlarını, onun canlı və dərin psixologisini yaradıcı və səmimi ifadə etməkdir. Qənaətimizcə, respublikanın əməkdar rəssamı Rafael Muradovun müasir Azərbaycan rəngkarlığında dərin iz salmış yarıməsrlik yaradıcılığı məhz belə nümunələr toplusundan ibarətdir...



**Ziyadxan Əliyev**

*Azərbaycan Respublikasının əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru*

◆